19 (1376) 15-21 may 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN GÜCLƏNDİRİLMƏSİNƏ MÜHÜM TÖHFƏ

Mayın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində XXX Yubiley Azərbaycan Beynəlxalq Qida Sənayesi - “InterFood Azerbaijan” və XVIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - “Caspian Agro” sərgiləri ilə tanış olub.

Artıq milli brendə çevrilmiş “InterFood Azerbaijan” və “Caspian Agro” sərgiləri kənd təsərrüfatı və qida sənayesi sahələrində Xəzər regionunun ən böyük sərgiləridir.

Bakı Ekspo Mərkəzinin bütün pavilyonlarını, həmçinin açıq sahəsini əhatə edən və mayın 16-da başa çatacaq “InterFood Azerbaijan” və “Caspian Agro” sərgilərində 31 ölkədən 450 şirkət iştirak edir.




Sərgilərdə ABŞ, Çin, Qazaxıstan, Özbəkistan, Rusiya, Türkiyə və digər ölkələrin aparıcı kənd təsərrüfatı istehsalçıları məhsullarını nümayiş etdirirlər. Qeyd edək ki, Almaniya, Belarus, Cənubi Koreya, Gürcüstan, İtaliya, Niderland, Şri-Lanka, eləcə də ilk dəfə olaraq Misir sərgilərdə milli qruplar şəklində təmsil olunur.

Bu il “InterFood Azerbaijan” sərgisi öz 30 illik yubileyini qeyd edir. Ötən illər ərzində 50-dək ölkədən 3 mindən çox şirkət və 150 mindən artıq ziyarətçini qəbul edən sərgi səmərəli biznes platforması statusunu qazanıb. Burada təqdim olunan yeni texnologiyalar və innovativ həllər qida sənayesi sahəsinin inkişafına və biznes əlaqələrinin genişləndirilməsinə əlverişli imkanlar yaradır. Eyni zamanda, sərgi ərzaq təhlükəsizliyinin əsas aspektlərini əhatə edərək, onun gücləndirilməsinə də töhfə verir.

Kənd Təsərrüfatı Nazirliyi bu il də sərgilərdə stendlə iştirak edir. 2025-ci ildə nazirliyin iştirakının əsas mövzusu süni intellektin kənd təsərrüfatında tətbiqi ilə bağlıdır. Belə ki, dövlətimizin başçısının tapşırığına uyğun olaraq süni intellektin kənd təsərrüfatında tətbiqi prioritet kimi müəyyən olunub.

Sərgilər “Made in Azerbaijan” brendinin təşviqi üçün əlverişli platforma rolunu oynayır. Ötən il olduğu kimi, bu il də “Caspian Agro” və “InterFood Azerbaijan” sərgiləri çərçivəsində iştirakçılar bu brend altında məhsullarını nümayiş etdirirlər.

Prezident İlham Əliyev sərgilərin açıq hissəsində nümayiş etdirilən texnika və pavilyonlarla tanış olub. Sərgilər Azərbaycanın kənd təsərrüfatı və qida sənayesinin inkişafına dəstək verərək, ölkənin ixrac potensialının artırılmasına, xarici investisiyaların cəlb edilməsinə imkan yaradır, eyni zamanda, qida təhlükəsizliyi və innovativ həllərin tətbiqi üçün əlverişli platforma rolunu oynayır. Sərgilərin miqyasını və sərgi çərçivəsində keçirilən tədbirlərin zəngin proqramını nəzərə alaraq, “Caspian Agro” və “InterFood Azerbaijan” 2026-cı ildən etibarən yeni “AgriWeek” brendi altında keçiriləcək.

## “BU GÜN KƏNGƏRLİNİN TİMSALINDA YENİLƏŞƏN AZƏRBAYCANI, BƏRPA OLUNAN QARABAĞI GÖRÜRÜK”




Bu sözləri Prezident İlham Əliyev Ağdam rayonunun Kəngərli kəndinə köçən sakinlərlə görüşündə deyib.

*“Göstəririk ki, bu torpaqların sahibi həmişə biz olmuşuq, bu gün də belədir. Ancaq bu torpağın sahibi bu torpaqda qurub-yaradır”,* - deyə dövlətimizin başçısı əlavə edib.

O, deyib: *“Bütün bu əzablı illər (işğal illəri - red.) arxada qaldı. Siz indi öz doğma torpağınıza qayıdırsınız və qayıtmısınız, sizin üçün gözəl şərait yaradılıb. Kəngərli kəndi göz oxşayır. Kəndin bərpasının, yenidən qurulmasının birinci mərhələsidir, 292 ev hazırdır, sizin ixtiyarınıza verilir. İkinci mərhələdə daha çox evlər tikiləcək”.*

## “ULU ÖNDƏRİN BÜTÜN HƏYATI, BÜTÜN FƏALİYYƏTİ AZƏRBAYCAN XALQINA, DÖVLƏTİNƏ HƏSR EDİLMİŞDİR”

Bu sözləri Prezident İlham Əliyev Ağdam Muğam Mərkəzinin açılışında çıxışı zamanı deyib.

Dövlətimizin başçısı qeyd edib ki, məhz Ulu Öndərin 1993-cü ildə Azərbaycan rəhbərliyinə gəlməsindən sonra ölkəmiz inkişaf yoluna qədəm qoyub.

**O, bildirib:** “Bu gün Qarabağ dirçəlir, bərpa edilir. İkinci Qarabağ müharibəsindən keçən dörd il yarım ərzində quruculuq işləri göz qabağındadır.




Azad edilmiş bütün torpaqlarda geniş quruculuq, bərpa işlərinin aparıldığını söyləyən dövlətimizin başçısı bildirib: *“İşğal dövründə Ermənistan dövləti məqsədyönlü siyasət apararaq bütün şəhər və kəndlərimizi yerlə-yeksan etmişdir. Buraya və azad olunmuş digər bölgələrə səfər edən xarici qonaqlar öz təəccübünü və bir çox hallarda hiddətini gizlədə bilmirlər”.*

## “YAŞADIĞIMIZ BÖLGƏDƏ BİZİMLƏ BU GÜN HESABLAŞMAYAN SABAH PEŞMAN OLUR”

“Bu, (Vətən müharibəsində Zəfər – red.) bizim hamımızın Qələbəsidir. Azərbaycan xalqı bu Qələbəni əldə etməklə öz tarixi böyüklüyünü bütün dünyaya nümayiş etdirdi”.

Bu barədə Prezident İlham Əliyev Ağdam Muğam Mərkəzinin açılışında çıxışı zamanı bildirib.

Dövlətimizin başçısı qeyd edib: *“Təsadüfi deyil ki, Azərbaycana dünyada olan münasibət, - hətta bizə düşmənçilik edən dairələr, qüvvələr, ölkələr bilirlər ki, biz ləyaqətli xalqıq, hörmətə layiq olan xalqıq və bizimlə hesablaşmaq lazımdır. Ən azı yaşadığımız bölgədə bizimlə bu gün hesablaşmayan sabah peşman olur”.*

## Gürcüstanla aqrar sahədə əməkdaşlıq məsələləri müzakirə olunub

18-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi çərçivəsində kənd təsərrüfatı nazirinin müavini Elçin Zeynalov ilə Gürcüstanın ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı naziri Davit Sonqulaşvili arasında görüş keçirilib.



Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən bildirilib ki, kənd təsərrüfatı nazirinin müavini Elçin Zeynalov görüşdə ölkəmizdə aqrar inkişaf strategiyasının əsas istiqamətləri, aqrar sahəyə dövlət dəstəyi, həyata keçirilən innovativ layihələr barədə ətraflı məlumat verib.

Bildirilib ki, iki ölkə arasında bütün sahələrdə əməkdaşlıq dinamik inkişaf edir. Gürcüstanı Azərbaycanın kənd təsərrüfatı sahəsində mühüm tərəfdaşı adlandıran nazir müavini bu əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduqlarını qeyd edib. Elçin Zeynalov Azərbaycanın rəqəmsal kənd təsərrüfatı və kənd təsərrüfatı sığortası sahəsində uğurlu layihələrini və təcrübələrini Gürcüstan tərəfi ilə bölüşməyə hazır olduğunu vurğulayıb.

Görüşdə iki ölkə arasında aqrar sahədə əməkdaşlıq imkanları müzakirə olunub.

Tərəflər kənd təsərrüfatı sahəsində Azərbaycan və Gürcüstan arasında tərəfdaşlığı genişləndirmək üçün böyük potensialın olduğunu vurğulayıblar.

## “BİZ ŞUŞANI XANKƏNDİ İLƏ BİRLƏŞDİRƏN “KANAT YOLU” LAYİHƏSİ ÜZƏRİNDƏ İŞLƏYİRİK”

Bu sözləri Prezident İlham Əliyev Ağdam Muğam Mərkəzinin açılışında çıxışı zamanı deyib.

Dövlətimizin başçısı qeyd edib: *“Laçın şəhərində kanat yolunun tikintisinə yaqin ki, bu il başlanılacaq. Kəlbəcərdə də belə layihə var. Yəni ki, bu, həm turizm baxımından, həm insanların rahat gediş-gəlişi üçün çox gözəl bir vasitə olacaq”.*

## Yaşıl enerji və infrastruktur layihələri ilə bağlı müzakirələr aparılıb

Azərbaycan və Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) arasında yaşıl enerji və infrastruktur layihələri ilə bağlı müzakirələr aparılıb.

Trend xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov “X” sosial şəbəkə hesabında paylaşım edib. “Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) İllik Toplantısı çərçivəsində Bankın prezidenti xanım Odil Reno-Basso ilə görüşməkdən məmnun olduq. Ölkəmizin Bankla əməkdaşlığının prioritet istiqamətləri, yaşıl enerji və infrastruktur layihələrinin icrası barədə müzakirələr apardıq. Dayanıqlı iqtisadiyyata keçid üçün birgə fəaliyyətin gücləndirilməsinin əhəmiyyətini vurğuladıq”, - deyə paylaşımda qeyd edilib.

# "Azərbaycan "yaşıl" enerjiyə keçid üzrə regionun lideri olmaq niyyətindədir"



"Azərbaycan ölkəni regionun "yaşıl" enerji və dayanıqlı infrastruktur əlaqəliliyi mərkəzinə çevirməyə yönəlmiş iddialı bir strategiyanı həyata keçirir".

Bunu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov Avropa Yenidənqurma və İnkişaf Bankının illik toplantısı çərçivəsində keçirilən "Azərbaycan: yaşıl inkişaf və qoşulma üçün yeni imkanlar" mövzusunda Londonda keçirilən panel müzakirələrdə etdiyi çıxışda bildirib.

Cabbarov Azərbaycanın təmiz enerji sahəsində regional layihələrdə getdikcə artan rolunu qeyd edib. O, xüsusilə Azərbaycanın və Gürcüstanın bərpaolunan enerji resurslarının Avropaya ixracını hədəfləyən mövcud təşəbbüslər barədə bunları deyib.

"Təbii ki, artıq həyata keçirilən layihələr, o cümlədən 'yaşıl' infrastruktur, Azərbaycanda və Gürcüstanda istehsal olunan bərpa olunan enerjinin Avropa bazarlarına çatdırılmasına yönəlib. Güclü siyasi dəstək və regional əməkdaşlıq olmasaydı bu, mümkün olmazdı", – deyə Cabbarov vurğulayıb. Onun sözlərinə görə, bu əməkdaşlıq yalnız qonşu ölkələrlə məhdudlaşmır.

***"Biz yalnız Macarıstan, Rumıniya və Bolqarıstanla deyil, eyni zamanda Azərbaycandan şərqdə yerləşən regionlarla, xüsusilə Mərkəzi Asiya ölkələri ilə də fəal əməkdaşlıq edirik. Qazaxıstan və Özbəkistan enerji sistemlərinin, ilk növbədə bərpa olunan enerji mənbələri əsasında birləşdirilməsinə dair əzmimizin parlaq nümunəsidir. Bu isə artıq praktikada baş verir",*** - deyə o əlavə edib.

# Xankəndidə yeni yarımstansiya tikiləcək

Yeni tikili mövcud "Xankəndi Şəhər" yarımstansiyasının əvəzinə inşa olunacaq.

Məlumata görə, həmçinin 35 kV-luq iki dövrəli kabel xətti (Yarımstansiya №2) də çəkiləcək.

Belə ki, artıq bununla bağlı "Azərişiq" Açıq Səhmdar Cəmiyyəti (ASC) müvafiq işlərə start verib. ASC sözügedən işlərin icrasının 5,6 milyon manata başa gələcəyini proqnozlaşdırıb.

# FAO: Azərbaycan hökuməti ilə tərəfdaşlığımız inkişaf etməkdə davam edir




"Bakı bir neçə ay əvvəl qlobal liderlərin dünyanın qarşılaşdığı ən böyük çağırışlardan biri olan iqlim dəyişmələri ilə mübarizə aparmaq üçün bir araya gəldiyi olduqca əhəmiyyətli COP29-a ev sahibliyi etdi. Bu gün biz həmin səyləri davamlı qida sistemləri, su ehtiyatlarından daha səmərəli istifadə və iqlimə uyğun "ağıllı kənd təsərrüfatı" vasitəsilə gündəlik fəaliyyətimizlə davam edirik".

Bu sözləri BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələr Ofisinin rəhbəri Nasar Hayat 30-cu Azərbaycan Beynəlxalq Qida Sənayesi "InterFood Azerbaijan" və 18-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "Caspian Agro" sərgisində deyib.

O bildirib ki, FAO innovasiyalara, bərabərlik və ədalətə, eləcə də hər kəsin təhlükəsiz, sağlam və yetərincə qidalanmaya çıxışı olan bir dünyaya sadiqdir.

# "Azad edilmiş ərazilərdə meşələrin bərpası məsələsində əməkdaşlıq vacibdir"



Bunu Trend-ə açıqlamasında Latviya Respublikasının Kənd Təsərrüfatı naziri Armando Krauze Bakıda keçirilən 18-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "Caspian Agro" Sərgisi çərçivəsində deyib. A.Krauze Azərbaycanla əməkdaşlıq imkanlarından danışıb: "Latviyada da eyni istiqamətdə irəliləyirik, bu sahədə informasiya mübadiləsi apara bilərik. Havanın fərqli olmasına, bitkilərin müxtəlifliyinə baxmayaraq, siz şaftalı, hətta kivi yetişdirirsiniz. Amma Latviyada bu, mümkün deyil, hava çox soyuqdur, amma fermerlərə necə kömək etmək, necə məsləhət vermək, IT həllərdən necə istifadə etmək məsələləri eynidir. Bu sahədə əməkdaşlıq edə bilərik".

"*İkinci vacib məsələ isə Latviyada çoxlu meşələrimizin olmasıdır və biz Azərbaycanla meşə sənayesi sahəsində məlumat mübadiləsi aparıb əməkdaşlıq edə bilərik. Azərbaycanın azad edilmiş ərazilərində meşələrin bərpası məsələsində əməkdaşlıq vacibdir. Latviyanın ərazisinin 53%-i meşələrlə örtülüdür və bu sahədə böyük təcrübəmiz var. Bu sahədə əməkdaşlıq edə bilərik və Latviya Azərbaycanda meşə təsərrüfatına investisiya da qoya bilər*", - deyə latviyalı nazir bildirib.

# bp Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşunun məbləğini açıqlayıb

bp şirkəti Azərbaycanda 33 ildir ki, neft və qazın kəşfiyyatı, işlənməsi və nəqli üzrə iri layihələrin əməliyyatçısıdır. Bu vaxtadək bp öz tərəfdaşları ilə birlikdə ölkədə icraçısı olduğu layihələrə 87 milyard dollardan çox sərmayə qoyub.

Bununla yanaşı, bp özü və onun əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından ölkədəki sosial sərmayə layihələrinə ümumilikdə 111 milyon ABŞ dollarından çox vəsait xərcləyib.

bp-nin ölkədə həyata keçirdiyi geniş sosial sərmayə fəaliyyətləri və bacarıqların inkişaf etdirilməsi istiqamətindəki səyləri insanlara əhəmiyyətli faydalar gətirməklə, onların həyatını yaxşılaşdırıb və dəyişdirib.

Şirkətin sosial sərmayələri yerli potensialın yaradılması, təhsil, icmaların inkişafı, yerli sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəlib.

Qeyd edək ki, fəaliyyətə başladığı vaxtdan indiyədək Azərbaycanda bp şirkətində təxminən 2398 Azərbaycan vətəndaşı çalışır və bu da, şirkətin ixtisaslı işçi heyətinin 90 faizindən çoxunu təşkil edir.

# Bu il orta aylıq əməkhaqqı 10 faiz artıb

Cari ilin yanvar-mart aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 10 faiz artaraq 1083,8 manat təşkil edib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, iqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

Bu il aprelin 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1774,9 min nəfər olub, onlardan 880,1 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 894,8 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

Muzdla işləyənlərin 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,6 faizi təhsil, 13,7 faizi sənaye, 8,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,6 faizi tikinti, 6,3 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,9 faizi peşə, elmi və texniki fəaliyyət, 2,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,3 faizi maliyyə və sığorta fəaliyyəti, 14,9 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olublar.

# Qeydiyyatda olan kommersiya qurumlarının sayı 8,4 faiz artıb

Cari ilin may ayının 1-nə respublika üzrə uçotda olan 1 milyon 621 min 818 vergiödəyicisinin 86,9 faizi fiziki şəxslər, 13,1 faizi hüquqi şəxslər və digər təşkilatlar olub.

Dövlət Vergi Xidmətindən verilən məlumata görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə vergiödəyicilərinin ümumi sayı 4,8 faiz, o cümlədən fiziki şəxslərin sayı 4,3 faiz, hüquqi şəxslərin sayı isə 7,7 faiz artıb.

Dövlət qeydiyyatında olan kommersiya hüquqi şəxslərin 91,7 faizi məhdud məsuliyyətli cəmiyyət, 1,1 faizi səhmdar cəmiyyət, 1,1 faizi kooperativ və digər formalarda yaradılıb. May ayının 1-nə qeydiyyatda olan kommersiya qurumlarının sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,4 faiz artaraq 195 min 263 vahid təşkil edib.

Bu ilin yanvar-aprel aylarında 4995 vahid kommersiya qurumu dövlət qeydiyyatından keçib ki, onların da 89,5 faizi yerli investisiyalı, 10,5 faizi xarici investisiyalıdır.

Kommersiya qurumlarının 86,3 faizi elektron qaydada qeydiyyata alınıb. Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin e-qeydiyyatının xüsusi çəkisi 97,1 faiz təşkil edib.

# DVX-nin Tədris Mərkəzi ilə CİAT arasında əməkdaşlıq memorandumu imzalanıb



Çilinin Santyaqo şəhərində Amerikadaxili Vergi Administrasiyaları Mərkəzinin (CIAT) 59-cu Baş Assambleyası keçirilib.

Dövlət Vergi Xidmətindən verilən məlumata görə, tədbirdə ölkəmizi İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (DVX) Tədris Mərkəzinin rəisi səlahiyyətlərini icra edən, xidmət rəisinin müşaviri Sərxan Həşimov və Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinin İstintaq və təhqiqat idarəsinin şöbə rəisi Faiq İsazadə təmsil ediblər.

Çili Vergi Xidmətinin təşkilatçılığı ilə baş tutan tədbir cari ildə "Vergidən yayınma və vergi cinayətləri ilə mübarizədə vergi administrasiyalarının rolu"na həsr olunub.

Baş Assambleyada Amerika, Avropa, Afrika və Asiyadan 58 ölkənin nümayəndə heyətləri və beynəlxalq təşkilatlar iştirak ediblər. Tədbirdə vergidən yayınma və cinayətkarlıqla mübarizə, informasiya mübadiləsi və institusional əməkdaşlıq, faktura saxtakarlığı, qaçaqmalçılıq və təşkilatlanmış cinayətkarlıq məsələləri ilə bağlı geniş müzakirələr aparılıb.

Səfər çərçivəsində Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi ilə CİAT arasında əməkdaşlıq memorandumu imzalanıb. Tərəflər vergi inzibatçılığının səmərəliliyini gücləndirmək üçün təlim proqramları üzrə əməkdaşlıq etməyə razılaşıblar. Memorandumu Azərbaycan tərəfdən DVX rəisinin müşaviri, Tədris Mərkəzinin rəisi vəzifəsini icra edən Sərxan Həşimov, CIAT tərəfdən icraçı katib Marcio Ferreira Verdi imzalayıblar.

# 2030-cu ilə qədər bərpa olunan enerji mənbələrinin gücünün 30 faizi ötəcəyi gözlənilir



"Azərbaycan enerji səmərəliliyi, bərpa olunan enerji mənbələrinin inkişafı və enerji sektorunun müasirləşdirilməsi sahəsində qanunvericilik və normativ bazanı fəal şəkildə gücləndirir".

Bunu Azərbaycanın energetika nazirinin müavini Elnur Soltanov Londonda keçirilən Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) illik toplantısı çərçivəsində "Azərbaycan: yaşıl inkişaf və dayanıqlı bağlantı üçün yeni imkanlar" mövzusunda panel müzakirəsində çıxış edərkən bildirib.

Soltanov hazırda hazırlıq mərhələsində olan üç əsas qanunvericilik təşəbbüsünü vurğulayıb: bunlar istilik təchizatı, qaz təchizatı və tənzimləmə ilə bağlı qanunlardır.

"Xüsusilə istilik təchizatı haqqında qanunu qeyd etmək istərdim. Bu qanunda hazırda Azərbaycanda geniş yayılmamış mərkəzləşdirilmiş istilik sistemlərinin inkişafına xüsusi diqqət ayrılır. Həmçinin, burada enerji səmərəliliyi və istilik nasosları kimi yeni texnologiyaların tətbiqindən söhbət gedir. Məhz bu, yeni qanunvericiliyin əsas ideyasını təşkil edir".

Onun sözlərinə görə, hazırda hazırlanmaqda olan tənzimləmə haqqında qanun da mühüm əhəmiyyət kəsb edir.

***"Bu qanun irəliyə doğru mühüm addım olacaq, çünki o, Azərbaycanın tənzimləyici agentliyinin fəaliyyətinin genişləndirilməsinə və gücləndirilməsinə, o cümlədən real xərclərə əsaslanan tarif sisteminin formalaşdırılmasına imkan verəcək",*** - deyə o, bildirib.

# Almaniya şirkəti Azərbaycanla əməkdaşlıq niyyətindədir

"Almaniyanın torpağın şumlanmasını həyata keçirən, eləcə də müxtəlif bitkiləri alaq otlarından təmizləyən texnika istehsalçısı məhsullarını Azərbaycan və qonşu ölkə bazarlarına təqdim etmək niyyətindədir".

Bu barədə Bakıda keçirilən sayca 18-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi ("Caspian Agro") və 30-cu yubiley Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisi ("InterFood Azerbaijan") çərçivəsində Trend-ə açıqlamasında Almaniyanın "Braun Maschinenbau GmbH" şirkətinin ixrac məsələləri üzrə meneceri Mariakristina Kastaqnotto məlumat verib. O, ilk olaraq təmsil etidiyi şirkət barədə danışıb: "Şirkətimiz orqanik sahədə fəaliyyət göstərir. Bu, o deməkdir ki, bizim baxışımıza görə, orqanik qidalanmaq sağlamlıq üçün faydalıdır. Mümkün qədər az pestisid və kimyəvi maddə istifadə etmək yaxşıdır. Biz bağlarda, xüsusən də üzüm bağlarında torpağın şumlanmasını həyata keçirən, eləcə də, bitkiləri, xüsusən də üzüm tənəklərini alaq otlarından təmizləyən xüsusi texnika istehsalçısıyıq. Ən vacibi isə budur ki, biz bitkinin üst hissəsində də işləyirik ki, məhsulun miqdarını və meyvələrin keyfiyyətini artıraq".



*"Biz Azərbaycanda biznesimizi genişləndirmək istəyirik. Azərbaycanın zəngin tarixinin olduğunu bilirik, amma texnoloji cəhətdən yeni ölkə hesab edilir. Bilirsiniz, beş il əvvəl hər şey əl ilə edilirdi. Amma indi böyük şirkətlər çox sayda traktorlar alırlar. Mən gördüm ki, Azərbaycanda təkcə bir şirkətdə 5 000 traktor var. Bazar vəziyyətinə görə, düşünürük ki, Azərbaycan və bütün qonşu ölkələr bizim üçün yaxşı bir imkan ola bilər"*, - deyə şirkət rəsmisi qeyd edib.

# Azərbaycan-Çin münasibətləri yeni mərhələdə: daha möhkəm dostluğa və daha güclü strateji tərəfdaşlığa doğru

*(əvvəli ötən sayımızda)*

**Si CİNPİN: "Ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətləri üçün möhkəm təməl və geniş perspektivlər var"**

Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Çinlə münasibətlər dinamik inkişaf etmiş, yeni əməkdaşlıq əlaqələri formalaşmışdır. Bu dövrdə Azərbaycan Prezidenti İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpinin siyasi iradəsi, onların dostluq münasibətləri iki ölkə arasında qarşılıqlı əlaqələrin inkişafının intensivləşməsi üçün əlverişli zəmin yaratmışdır. Dövlət başçılarının qarşılıqlı etimad və dostluq münasibətləri iki ölkə arasındakı münasibətlərin dinamikasına xüsusi impuls verir və müxtəlif sahələrdə əməkdaşlığın genişlənməsində xüsusi rol oynayır.

Xüsusən Prezident İlham Əliyevin Çinə 2005-ci ildə rəsmi, 2014-cü ildə işgüzar, 2015-ci ildəki dövlət səfərləri ölkələrimiz arasında əlaqələrin inkişafına və canlandırılmasına mühüm töhfələr verib. Prezident İlham Əliyevin 2015-ci ildə Çinə etdiyi dövlət səfəri zamanı imzalanmış 10 sənəd, Birgə Bəyannamə ikitərəfli münasibətlərimizin sonrakı dövrdə inkişafı üçün yeni imkanlar pəncərəsi açıb.

Həmin səfər zamanı Prezident İlham Əliyevə xitabən ***"Cənab Prezident Çin xalqının köhnə dostudur. Siz Çin-Azərbaycan münasibətlərinin inkişafı üçün daim səy göstərirsiniz"***, - deyən ÇXR-in Sədri Si Cinpin bildirmişdir: ***"Uzun illərdir ki, Çin ilə Azərbaycan hüquq bərabərliyi, qarşılıqlı fayda və qarşılıqlı hörmət ruhunda ikitərəfli əlaqələri inkişaf etdirir, həyati əhəmiyyətli və ciddi narahatlıq doğuran məsələlərdə bir-birini qətiyyətlə dəstəkləyirlər. Siyasi sahədə qarşılıqlı etimad daim möhkəmlənir, çoxplanlı əməkdaşlıq fasiləsiz olaraq dərinləşir. Ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətləri üçün möhkəm təməl və geniş perspektivlər var"***.

Prezident İlham Əliyev də öz növbəsində Si Cinpinin dünya siyasətində oynadığı mühüm rola və Azərbaycana olan xeyirxah münasibətinə toxunaraq demişdi: ***"Bizi möhkəm münasibətlər bağlayır. Biz bir sıra sahələrdə dostlar və tərəfdaşlar kimi əməkdaşlıq edirik. Mən bilirəm ki, siz bizim ölkəmizə xoş münasibət bəsləyirsiniz. Azərbaycanda sizi çox yaxşı tanıyırlar, dünyamiqyaslı məsələlərdə oynadığınız rola, həmçinin Azərbaycana xeyirxah münasibətinizə görə Sizi yüksək dəyərləndirirlər"***.

Azərbaycan Prezidentinin 2019-cu ilin aprel ayında Çinə səfəri zamanı bu ölkə ilə 820 milyon ABŞ dolları dəyərində daha 10 saziş imzalanmışdır. Bunlar Sumqayıt Kimya Sənaye Parkı ərazisində şin istehsalı zavodunun qurulmasına, Kürdəmir rayonunda 300 hektaradək sahədə müasir istixana kompleksinin tikintisinə, Quba, Xaçmaz və Göyçayda aqro-logistik sənaye parklarının yaradılmasına, "Azerbaijan Digital HUB" proqramı çərçivəsində Asiya-Avropa telekommunikasiya dəhlizinin yaradılmasına, Trans-Xəzər Nəqliyyat Dəhlizi vasitəsilə Bakıya və Azərbaycan ərazisindən tranzit keçməklə digər ölkələrə 2500-dək konteynerin daşınmasına, Azərbaycan istehsalı olan şərab və digər spirtli içkilərin Çinə ixracına, Çinin Çendu şəhərində Azərbaycan Ticarət Evinin yaradılmasına dair sənədlərdir.

Xüsusilə vurğulamalıyıq ki, 2019-cu il 25-27 aprel tarixlərində Pekində keçirilən 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda Cənubi Qafqaz regionundan iştirak edən yeganə gövlət başçısı məhz cənab İlham Əliyev olmuşdu. Həmin səfər zamanı da keçirilən görüşdə Si Cinpin demişdi: ***"Cənab Prezident, Siz Çin xalqının çoxdankı dostusunuz, Çin-Azərbaycan münasibətlərinin və bütün sahələrdə əməkdaşlığın inkişafı üçün şəxsən daim səy göstərirsiniz. Mən bunu yüksək qiymətləndirirəm və Sizinlə sıx əlaqə saxlamağa, ikitərəfli münasibətləri birlikdə sağlam məcrada inkişaf etdirməyə hazıram"***. Bu fikir Azərbaycan Prezidenti İlham Əliyevin şəxsiyyətinə, qlobal siyasətdə yerinə və roluna verilən önəmli qiymətin təzahürü idi.

Son illər iki ölkə arasında əlaqələrdə xüsusi canlanma yaşanır. Prezident İlham Əliyev 2023-cü ildə Çinin "China Media Group" media korporasiyasına verdiyi müsahibədə iki ölkə arasındakı münasibətlərin əla səviyyədə olduğunu vurğulamışdır: ***"Beynəlxalq gündəliyə aid təməl məsələləri götürsək görərik ki, bizim mövqelərimiz suverenlik, müstəqillik, ərazi bütövlüyü, digərlərinin daxili işlərinə qarışmamaq, iqtisadi əməkdaşlıq məsələlərində mövqelərimiz üst-üstə düşür. Biz qarşılıqlı ticarətin həcminin artmasını görürük və böyük potensial xüsusilə göz qabağındadır. Ölkələrimizi gələcəkdə daha da birləşdirəcək meydana gələn yeni nəqliyyat marşrutlarını görürük. Bunun özü də regional təhlükəsizliyə və sabitliyə böyük töhfə olacaq"***.



Dövlətimizin başçısı həmçinin COVID-19 pandemiyası başlayan zaman peyvəndlərin ölkəmizə gətirilməsində Azərbaycana yardım edən yeganə ölkənin Çin olduğunu xüsusilə diqqətə çatdırmışdır.

Rəsmi Pekinin Cənubi Qafqazın lider dövləti olan Azərbaycan ilə siyasi, iqtisadi, mədəni əlaqələrə necə böyük önəm verdiyi ÇXR Sədrinin Azərbaycan Prezidenti İlham Əliyevə ünvanlandığı məktublarında qeyd etdiyi fikirlərdə də əksini tapıb. Həmin fikirlərin ana xəttini Si Cinpinin Çin-Azərbaycan münasibətlərinin inkişafına böyük əhəmiyyət verməsi, dostluq və əməkdaşlıq münasibətlərinin davamlı, uzunmüddətli inkişafı üçün Prezident Əliyevlə birlikdə çalışmağa hazır olmasıdır. Məsələn, Si Cinpinin 2023-cü ilin dekabrında Prezident İlham Əliyevə məktubunda Azərbaycan və Çinin dost və tərəfdaş ölkələr olması xüsusi vurğulanır. Çin lideri məktubunda iki ölkə arasında münasibətlərin qarşılıqlı etimada əsaslandığını qeyd edib, Azərbaycan Prezidentinin bu münasibətləri möhkəmləndirmək üçün səylərini gücləndirdiyini vurğulayıb.

**Çin iqtisadi möcüzəsi**

Dünya təcrübəsi göstərir ki, iqtisadi və siyasi islahatlar uzunmüddətli mürəkkəb bir proses kimi hər bir ölkənin həyatında özünəməxsusluğu ilə təcəssüm olunur. İslahatlarda radikal, dağıdıcı mövqeyi qəbul etməyən Den Syaopin sistemli yanaşmanın, mütərəqqi dəyişikliklərin mərhələli həyata keçirilməsinin vacibliyini dərindən əsaslandırdı. O, Qərb təcrübəsini inkar etmir və həmin təcrübəni milli mənafelərin qorunması baxımından qiymətləndirməyi vacib sayırdı.

1,4 milyard nəfər əhalisi olan Çin "şok terapiyası"na uğrasaydı, ölkədə elə bir xaos yaranardı ki, bu bəlanın qarşısını almaq qeyri-mümkün olardı, Çin xaosu dünya fəlakətinə çevrilərdi. Elə bu səbəbdən də ən qabaqcıl ölkələrin başçıları belə, Den Syaopinin iqtisadi islahatlarının nəticələrini yeni Çin möcüzəsi kimi qiymətləndirirlər.

Bir sıra postsovet respublikalarının təcrübəsinin nəticələri göz qabağındadır. Yüzlərcə müəssisəni müflisləşdirib sonra özəlləşdirmək taktikası islahatların əsl mahiyyətinə, sosial tələblərinə uyğun deyildir. Spesifik inkişaf yolu keçmiş Çin iqtisadçılarının bu məsələyə münasibətini bilmək bizim üçün də maraqlıdır. Çin Ümumdünya Ticarət Təşkilatına daxil olmaq üçün çox ciddi hazırlaşırdı. Ona görə də dünya bazarlarına çıxmağın oyun qaydalarını dərindən təhlil etdi, azad bazar ticarətində uduzmamaq üçün rəqabətədavamlı məhsulları daha çox istehsal etməyə səy göstərdi və gözəl nəticələr əldə etdi. İndi Çinin ixrac imkanları çox böyükdür. Bunu ixrac və idxalı xarakterizə edən rəqəmlər açıq-aşkar sübut edir.

Hazırda Çin dünyanın ən böyük iqtisadiyyatlarından birinə malikdir. Ölkənin iqtisadi inkişaf modeli bazar mexanizmlərinin iqtisadi səmərəliliyinin sosial səmərəlilik və sosial ədalətlə optimal şəkildə uyğunlaşdırılmasına və uzlaşdırılmasına əsaslanır. Çin dövlətinin qəbul etdiyi və həyata keçirdiyi müasirləşmə xətti dörd əsas istiqaməti - sənayeni, kənd təsərrüfatını, elm, mədəniyyət və təhsili və müdafiəni əhatə edir. Həmçinin Çin dövləti dövlət mülkiyyətinin hakim rolu çərçivəsində bazar mexanizmlərinin və çoxtərəfli iqtisadiyyatın bütün formalarının tədricən genişləndirilməsi, yarımqapalı cəmiyyətdən dünyaya açıq olan cəmiyyətə keçilməsi, sosial-iqtisadi inkişaf sahəsində dövlətin rolunun əhəmiyyətli şəkildə dəyişdirilməsi ideyasını reallaşdırmağa dövlətin rolu yalnız bunlarla bitmir. Belə ki, Çin hökuməti ölkədə sosial-iqtisadi rifahı və inkişafı sürətləndirmək üçün azad rəqabəti dəstəkləyir, sahibkarları haqsız rəqabətdən qoruyur, sosial-iqtisadi yönümlü bazar münasibətlərinin inkişafına zəmin yaradır, cəmiyyətin aztəminatlı təbəqələrinin sosial müdafiəsini gücləndirir, əsas məzmununu bərabər hüquqlar, imkanlar, qaydalar və bölgü təşkil edən sosial ədalətin təminatı sistemini formalaşdırır, sosial-iqtisadi bazar münasibətlərini stabilləşdirir.

Çin Milli Statistika Bürosunun məlumatına görə, son illər bu ölkədə ümumi daxili məhsul (ÜDM) 120 trilyon yuandan (18 trilyon ABŞ dolları) çox olub. 1976-cı ildəki son azalmadan sonra Çin iqtisadiyyatı 2020-ci il istisna olmaqla, 49 il ərzində yüksək artım sürətlərini qoruyub saxlayıb. Yeni növ koronavirus pandemiyası səbəbindən inkişaf sürətində müəyyən azalmalar müşahidə edilsə də, tezliklə artım tempi bərpa olunub. Belə ki, ölkədə ÜDM istehsalı 2020-ci ildə 2,2, 2021-ci ildə 8,4, 2022-ci ildə 3, 2023-cü ildə 5,2 faiz təşkil edib. 2024-cü ildə ölkədə ÜDM-in həcmi 5 faiz artaraq 134 trilyon 908 milyard 400 milyon yuan (18,4 trilyon ABŞ dolları) olub. Çin sənaye müəssisələrinin ümumi mənfəəti illik müqayisədə 5,8 faiz artıb.

Ötən il ölkədə taxıl istehsalının həcmi artaraq rekord həddə - 705,5 milyon tona çatıb. Nəticədə Çin 1,4 milyardlıq əhalisinin ərzaq təhlükəsizliyini etibarlı şəkildə təmin edib. Eyni fikirləri enerji təhlükəsizliyi ilə bağlı da söyləyə bilərik. Çin valyuta ehtiyatlarına görə dünyada liderdir. Ölkədə internet istifadəçilərinin sayı 1,03 milyard nəfərə çatmışdır. Bu faktın özü Çinin demokratik inkişafının mühüm göstəricisi hesab oluna bilər.

Hazırda Çinin ixrac coğrafiyası bütün dünyanı əhatə edir və bu coğrafiyada həm də inkişaf etmiş ölkələr yer alırlar. Bu isə texnoloji və innovativ inkişafda Çinlə rəqabətdə uduzan Qərbin qısqanclığı ilə müşahidə olunur. Lakin bu cür yanaşmaların, geosiyasi gərginliklərin, qlobal pandemiyanın, sərt qapanmaların yaratdığı çətinliklərə baxmayaraq, ölkə perspektiv üçün də yüksək hədəflər müəyyənləşdirib.

Çin inkişaf etməkdə olan ölkələrin maraqlarını nəzərə alaraq ədalətli əsaslarla iqtisadi qloballaşmanın qurulmasının tərəfdarıdır. Bununla bağlı Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin mətbu orqanında dərc olunmuş məqalədə yazılır: ***"Biz iqtisadi qloballaşmanın inklüziv olmasının, xüsusən də inkişaf etməkdə olan ölkələrin ümumi tələblərinə cavab verməsinin, eləcə də ölkələr arasında və daxilində inkişaf tarazlıqlarını aradan qaldırmağın tərəfdarıyıq. Biz birlikdə böyüməli və iqtisadi qloballaşmanın "piroq"unu ədalətli şəkildə bölüşməliyik ki, müxtəlif ölkələr, təbəqələr və qruplar iqtisadi və sosial inkişafda iştirak edib onun bəhrələrindən istifadə edərək qarşılıqlı fayda və ümumi rifah əldə edə bilsinlər"***.

Çinlilər bugünkü uğurlarına görə 1976-1986-cı illərdə ölkəyə başçılıq etmiş Den Syaopinə minnətdardırlar. O, Çini dünya iqtisadiyyatının ikincisi etmiş iqtisadi islahatların və xarici aləmə açıqlıq siyasətinin banisidir. Məhz onun islahatları Çin iqtisadiyyatını liberallaşdırmış və sahibkarlığın inkişafına yol açmışdır. Dağıdıcı sosial və siyasi çəkişmələrdən sonra ölkəyə rəhbərlik edən Den Syaopin "Çin xüsusiyyətliyi ilə sosializm" prinsipi adı altında yeni sosialist təfəkkür formalaşdıraraq genişmiqyaslı iqtisadi islahatların təşəbbüskarı kimi ölkəsini dünya bazarının bir hissəsinə çevirdi.

Den Syaopinin belə bir sözü var: ***"Planlı iqtisadiyyat hələ sosializm demək deyildir. Bazar iqtisadiyyatı isə hələ kapitalizm demək deyildir"***. Qərb iqtisadçıları həmişə tənqid edirdilər ki, sovet dövlətinin planlı iqtisadiyyatı var. Amma planlı iqtisadiyyatın elə müsbət cəhətləri var ki, çinlilər bundan uğurla bəhrələndilər. Məsələn, "Bazar hər şeyi qəbul edir" şüarını bunlar qəbul etmədilər. "Dövlət iqtisadiyyatdan getməlidir" fikrini irəli sürən Qərb iqtisadçılarının əksinə olaraq Çin modeli sübut etdi ki, dövlət müəyyən müddət mütləq və mütləq iqtisadiyyatın idarə edilməsində iştirak etməlidir və onun tənzimləmə funksiyaları getdikcə daha təkmilləşməlidir. Çin inkişaf modelinin fərqli cəhətlərindən biri məhz budur.

Nəticə etibarilə Çin iqtisadiyyatı 1980-1990-cı illərdə sürətlə böyüməyə başlamış və 2010-cu ildə dünyanın ikinci ən böyük iqtisadiyyatı olan Yaponiyanı ötmüşdür. O vaxtdan bəri Çin iqtisadiyyatı böyüməyə davam edir. Son illər bu inkişafın sürəti azalsa da, onun trayektoriyası güclü olaraq qalır. Hazırda Çinin bütün dünyada investisiyaları var. Qərbin siyasi və texnoloji təzyiqlərinə baxmayaraq, Çin ilə bir çox Qərb ölkələri arasında ticarət artmaqda davam edir. Çin müasir qlobal iqtisadiyyatda böyük qüvvəyə çevrilib. Bu iqtisadi inkişaf prosesi təkamüllü olmaqla həm də o qədər sıçrayışlı və geniş səmərədə nəticəli idi ki, tezliklə onu "Çin iqtisadi möcüzəsi" adlandırdılar.

**Azərbaycan-Çin münasibətləri yeni mərhələdə: daha möhkəm dostluğa və daha güclü strateji tərəfdaşlığa doğru**

Çin inkişaf modelinin üç tərəfi və mənfəət prinsipi var: məhsuldar qüvvələrin inkişafı, dövlətin iqtisadi qüdrətinin artması və bu imkanlardan istifadə edərək sosial inkişafın təmin edilməsi. 1913-cü ildə Çinin dünya iqtisadiyyatında payı 7-8 faiz idi. Bu gün isə Çin alıcılıq paritetlərinə görə dünya iqtisadiyyatında 25 faizdən çox gücə malikdir. Çinin iqtisadi göstəricilərinin dinamikasına baxanda görürük ki, həm inkişaf sürətinə, həm iqtisadi artıma, həm inflyasiyanın səviyyəsinə, həm də valyuta ehtiyatlarının həcminə görə dünyada analoqu olmayan bir inkişaf modelidir.

Den Syaopin 47 il əvvəl elə bir inkişaf modeli seçdi ki, həmin hesaba Çin artıq dünyanın ən böyük iqtisadi gücü olan ABŞ ilə rəqabət aparan bir dövlətə çevrilib. Çin dövləti 40 il öncə necə iqtisadi siyasət aparırsa, onu yeni çağırışlara uyğun olaraq bundan sonra da o cür həyata keçirəcək. Çin qloballaşmanın səmərəli inkişafını tələb edir. Çinin məqsədi qloballaşmadan əldə olunan gəlirlərin ədalətli bölünməsi, inkişaf etməkdə olan ölkələrin irəli getməsidir. Bu baxımdan müasir qlobal iqtisadi çağırışlara Çin dövləti çox təmkinlə yanaşır.

*(davamı gələn sayımızda)*

**Ziyad SƏMƏDZADƏ,**
**akademik**

# AZƏRBAYCAN AUDİTİ – 2024: UĞURLAR, PERSPEKTİVLƏR VƏ PROBLEMLƏR

*“Azərbaycanda şəffaflığın artırılması və maliyyə nəzarətinin gücləndirilməsi sahəsində beynəlxalq audit və beynəlxalq mühasibat uçotu standartlarına keçidin əhəmiyyəti xüsusi qeyd edilməlidir. Həyata keçirilmiş kompleks tədbirlər yeni dövrün iqtisadi çağırışlarını nəzərə almaqla, ölkədə maliyyə-uçot sisteminin beynəlxalq tələblər əsasında təkmilləşdirilməsinə, iqtisadiyyatımızın dünya təsərrüfat sisteminə inteqrasiya imkanlarının gücləndirilməsinə şərait yaratmışdır”.*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkədə iqtisadi islahatların uğurla həyata keçirilməsində, azad sahibkarlıq fəaliyyətinin formalaşmasında və inkişafında mühüm rol oynayan, maliyyə nəzarətinin bütün dünyada geniş yayılmış sivil forması və mühüm bazar infrastrukturu olan auditor xidmətinin təşkili və təşəkkülü ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.***

Danılmaz bir faktdır ki, bu gün ölkəmizin tərəqqisinin əsasında Ulu Öndər Heydər Əliyevin ideyaları dayanır. Azərbaycanın indiki zənginliyi, intibahı Heydər Əliyev ideyalarının öz real təsdiqini tapması sayəsində mümkün olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik və uzaqgörən inkişaf strategiyası nəticəsində davam etdirilən bu strateji kurs nəticəsində dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir, bütün sahələrdə əldə olunan böyük uğurlarla tarixə düşür. Yürüdülən uğurlu, qətiyyətli siyasət, suverenliyimizin bərpası, həyata keçirilən iqtisadi və sosial layihələr, Azərbaycan iqtisadiyyatının daha da yüksələcəyindən xəbər verir.

Azərbaycan Respublikasının Auditorlar Palatası ölkə iqtisadiyyatının vacib infrastruktur sahələrindən biri olan auditin inkişafı və beynəlxalq standartlara uyğun qurulması istiqamətində fəaliyyətini 2024-cü il ərzində də ardıcıl şəkildə davam etdirmişdir. Palata öz fəaliyyətini “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu, “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnamə, “Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf Konsepsiyası (2021-2030-cu illər)”, Palata Şurasının 2023-cü il 28 dekabr tarixli 362/1 nömrəli qərarı ilə təsdiq edilmiş Palatanın və onun Şurasının 2024-cü il üzrə iş planları və digər normativ sənədlər çərçivəsində qurmuşdur.

В 2011 году отец опять решил поделиться со мной своей новой идеей и рассказал об огромном желании написать мемуары, посвященные исключительно нашей семье. Ему тогда уже исполнилось 85 лет. Я был очень рад его жизнелюбию и мотивации и полностью поддержал его новую инициативу. Он решил назвать книгу ***«Мои года – мое богатство»*** - одноименную со стихами Роберта Рождественского. Он сразу же приступил к воплощению своей идеи и к началу 2012 года полностью завершил написание книги. К большомусожалению, он не успел увидеть выход в свет своей книги из-за преждевременной кончины 25 февраля 2012 года. Однако, книга была выпущена в течение месяца после его ухода из жизни. В ней отражены наиболее яркие страницы жизни и развития нашей семьи. В этой книге много внимания уделено воспоминаниям всех членов нашей семьи и близких родственников.
Таким образом, отец ушел из жизни всего за 2,5 месяца до своего 87-летия. Когда говорят, что кто-то безвременно ушел из жизни, считается, что это образное выражение. Но в данном случае, я считаю, что это действительно так и речь не идет о его почтенном возрасте, а скорее всего о его вечно молодом энтузиазме и стремлении радоваться каждой прожитой минуте, развиваться самому и быть полезным своей семье, обществу и науке.
Светлая память о Халилове Нусрате Юсифоглы навсегда останется в сердцах любящих его людей, друзей и коллег. ***Allah rəhmət eləsin!***

# "Bakı Şampan Şərabları" ASC-nin 31 dekabr 2024-cü il tarixinə BALANS HESABATI

| Aktivlər | 31.12.2024 | 31.12.2023 |
|---|---|---|
| **1.Uzun müddətli aktivlər** | | |
| Qeyri-maddi aktivlər | 27500 | 27500 |
| Torpaq, tikili və avadanlıqlar | 4848031 | 4848031 |
| Bioloji aktivlər | 72362 | 72362 |
| Təbii sərvətlər | | |
| Təxirə salınmış vergi aktivləri | 8781 | 8781 |
| Sair uzunmüddətli maliyyə aktivləri | | |
| Sair uzunmüddətli aktivlər | | |
| **Cəmi uzunmüddətli aktivlər** | **4956674** | **4956674** |
| **2.Qısamüddətli aktivlər** | | |
| Ehtiyatlar | | 6 |
| Qısamüddətli debitor borcları | 96394 | 96352 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 14335 | 35405 |
| Sair qısamüddətli maliyyə aktivləri | | |
| Sair qısamüddətli aktivlər | 56501 | 64420 |
| **Cəmi qısamüddətli aktivlər** | **167236** | **196183** |
| **CƏMİ AKTİVLƏR** | **5123904** | **5152857** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **3.Kapital** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 6768718 | 6768718 |
| Emissiya gəlirləri | | |
| Kapital ehtiyatları | | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | (2557585) | (2293355) |
| **CƏMİ KAPİTAL** | **4211133** | **4475364** |
| **4.Uzunmüddətli öhdəliklər** | | |
| Təxirə salınmış vergi öhdəlikləri | | |
| Sair üzunmüddətli öhdəliklər | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | |
| **5. Qısamüddətli öhdəliklər** | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 33712 | 28084 |
| Qısamüddətli kreditor borcları | 879059 | 649405 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **912771** | **677489** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **912771** | **677489** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **5123904** | **5152853** |

| MƏNFƏƏT VƏ ZƏRƏR | | |
|---|---|---|
| Əsas əməliyyat gəliri | | |
| Satışın maya dəyəri | | |
| **ÜMUMİ MƏNFƏƏT** | | |
| Sair əməliyyat gəliri | 313589 | 301209 |
| **Kommersiya xərcləri** | | |
| **İnzibati xərclər** | 26480 | 70223 |
| Sair əməliyyat xərcləri | 200648 | 188462 |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | (86461) | |
| **Əməliyyat mənfəəti (zərər)** | (86461) | 42524 |
| Maliyyə gəliri | | |
| Maliyyə xərcləri | | |
| Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay | | |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | (86481) | 42524 |
| Mənfəət vergisi | | 8505 |
| Adi fəaliyyətdən mənfəət və ya zərər | | 34019 |
| Fövqəladə mənfəət (zərər) | | |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **(86461)** | **34019** |
| Hər səhm üzrə mənfəət | | |
| Azaldılmış hər bir səhm üzrə mənfəət | | |
| Hazır məhsul və bitməmiş istehsal ehtiyatlarındakı dəyişikliklər | (6) | (1468428) |
| İstifadə edilmiş material ehtiyatları | (2311) | 1460746 |
| İşçi heyəti üzrə xərclər | 25491 | 67919 |
| Amortizasiya xərcləri | | |
| **Sair əməliyyat xərcləri** | **200648** | **237671** |
| **Cəmi əməliyyat xərcləri** | **223821** | **297907** |
| **PUL vəsaitlərinin hərəkəti haqqında hesabat** | | |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | (46461) | (2127652) |
| Aşağıdakı maddələr üzrə düzəlişlər: | | |
| Mənfəət vergisi üzrə xərclər | | |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər | | |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər: | | |
| Ehtiyatlar | | 2013385 |
| Ehtiyat debitor və gələcək dövrlərin xərcləri | (42) | 180566 |
| Əməliyyat kreditor borcları və hesablaşmalar | 144161 | (125047) |
| Ödənilmiş (qaytarılmış) mənfəət vergisi | | |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **57659** | **58748** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin hərəkəti** | | |
| **Bank overdraftları pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə qalığı** | (43324) | (15424) |
| İl ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artmasına (azalması) xarici valyutaların məzənnə dəyişməsinin təsiri | | |
| **Bank overdraftları pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna qalığı** | 14335 | 43324 |

**KH.J.A AUDİT-CONSULTİNQ XİDMƏTİ" MMC**

Baku, Azerbaijan, Babak ave. 95, apt. 122; mobile: (+99450) 394-66-02
xaladdin-aliyev@mail.ru VÖEN;1604961411
İCAZƏ A/T 256; 25 noyabr 2022-ci il

**«Bakı Şampan Şərabları » Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və Rəhbərliyinə**

**auditorun hesabatı**

**Rəy** chw7LFhD9K

Mən "Bakı Şampan Şərabları" ASC-nin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyəti, mənfəət və ya zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının " Etika məcəlləsinin" (İESBA məcəlləsi) tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyiləm və digər etik öhdəliklərimi bu tələblərə uyğun olaraq yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimə daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkar edir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi mən audit aparılan zaman peşəkar mühakimə tətbiq edir və peşəkar şəffaflıq nümayiş etdirirəm. Mən həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirirəm və rəyimi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirəm. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürəm.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqiliyini qiymətləndirirəm.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarıram. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığım halda, auditor hesabatımda maliyyə hesabatlarmdakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyəm və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimə dəyişiklik etməliyəm. Nəticələrin auditor hesabatımın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndirirəm.

Mən Direktora digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrəm.

Mən həmçinin Direktora bəyanat verirəm ki, müstəqilliyə və müstəqilliyimə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimə dair müvafiq etik normalarına riayət etmişəm.

Direktorun nəzərinə çatdırılmış məsələlərdən mən cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirəm. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandınlmş şəkildə güman edildiyinə görə mən bu məsələ haqqında hesabatımda məlumatın verilməməsini qərara almadığım halda, mən bu məsələləri auditor hesabatımda təsvir edirəm.

Hesabat 03.05.2025-ci il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri "**Bakı Şampan Şərabları " ASC–nin** rəhbərliyinə təqdim edilir, ikincisi isə auditor təşkilatında saxlanılır.

**"KH.J.A Audit-Consultinq Xidməti"MMC**
**direktor- auditor:** **X.C.Əliyev**

**M.Y**

**03 may 2025-ci il**

# Cari ildə əsas kapitala 5 milyarddan çox vəsait yönəldilib

Car ilin yanvar-aprel aylarında əsas kapitala 5 milyard 69,3 milyon manat məbləğində, yaxud ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,6 faiz az investisiya yönəldilib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 22,7 faiz azalıb, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 5,3 faiz artıb.

İstifadə olunmuş investisiyanın 2 milyard 578,8 milyon manatı və ya 50,9 faizi məhsul istehsalı sahələrinə, 1 milyard 627,6 milyon manatı (32,1 faizi) xidmət sahələrinə, 862,9 milyon manatı (17 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Əsas kapitala yönəldilmiş investisiyaların 3 milyard 772,4 milyon manatını və ya 74,4 faizini daxili investisiyalar təşkil edib. Əsas kapitala yönəldilmiş investisiyaların 3 milyard 969,3 milyon manatı və ya 78,3 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.



# «PREMİUM BANK» ASC-nin 31 dekabr 2024-cü il tarixinə BALANS HESABATI

| | Qeydlər | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|---|
| **AKTİVLƏR:** | | | |
| ARMB-də nağd vəsaitlər və qalıqlar | 6 | 132,210 | 171,176 |
| Digər banklardakı qalıqlar | 7 | 36,890 | 38,588 |
| İnvestisiya qiymətli kağızları | 8 | 1,055 | - |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 9, 24 | 448,774 | 450,147 |
| Əmlak, avadanlıq və istifadə hüququ olan aktivlər | 10, 24 | 8,171 | 9,872 |
| Qeyri-maddi aktivlər | 10 | 1,604 | 1,665 |
| Təxirə salınmış mənfəət vergisi aktivi | 23 | 1,678 | 1,926 |
| Digər aktivlər | 11 | 6,145 | 6,108 |
| **Cəmi aktivlər** | | **636,527** | **679,482** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR:** | | | |
| Banklardan və maliyyə təşkilatlarından alınmış kreditlər və depozitlər | 12 | 81,088 | 78,312 |
| Müştərilərdən alınmış depozitlər | 13, 24 | 378,150 | 425,149 |
| Digər öhdəliklər | 14, 24 | 12,653 | 14,364 |
| **Cəmi öhdəliklər** | | **471,891** | **517,825** |
| **KAPİTAL:** | | | |
| Nizamnamə kapitalı | 15 | 154,601 | 154,601 |
| Bölüşdürülməmiş mənfəət | | 10,035 | 7,056 |
| **Cəmi kapital** | | **164,636** | **161,657** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **636,527** | **679,482** |

| | Qeydlər | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Faiz gəliri | 16, 24 | 32,578 | 31,695 |
| Faiz xərci | 16, 24 | (11,844) | (11,148) |
| **Xalis faiz gəliri** | 16, 24 | **20,734** | **20,547** |
| Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərlərinin bərpası | 22 | 1,984 | 2,401 |
| **Xalis faiz gəliri** | | **22,718** | **22,948** |
| Haqq və komissiya gəliri | 18 | 14,295 | 15,175 |
| Haqq və komissiya xərci | 19 | (7,453) | (9,353) |
| Xarici valyuta əməliyyatları üzrə xalis gəlir | 17 | 3,063 | 2,586 |
| **Əməliyyat gəliri** | | **32,623** | **31,356** |
| İnzibati və ümumi xərclər | 21, 24 | (16,051) | (18,792) |
| Köhnəlmə və amortizasiya xərcləri | 20, 24 | (3,056) | (2,655) |
| Digər gəlirlər, xalis | | 106 | 23 |
| **Mənfəət vergisindən əvvəl mənfəət** | | **13,622** | **9,932** |
| Mənfəət vergisi xərci | 23 | (3,587) | (2,876) |
| **İl üzrə xalis mənfəət** | | **10,035** | **7,056** |
| İl üzrə digər məcmu gəlir | | - | - |
| **İl üzrə cəmi məcmu gəlir** | | **10,035** | **7,056** |
| **Bankın sahiblərinə aid olan, əsas və azaldılmış bir səhm üzrə mənfəət (hər səhm üzrə AZN ilə ifadə olunur)** | 29 | **10.00** | **7.03** |

**İdarə Heyətinin adından:**

**Kamil Lətifov**
**İdarə Heyətinin sədri**
14 aprel 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Mahir Nəcəfov**
**İdarə Heyətinin sədrinin müavini/**
**Baş maliyyə inzibatçısı**
14 aprel 2025-ci il
Bakı, Azərbaycan Respublikası

9-69-cu səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

# "AzerGold" QSC-nin İdarə Heyətinin sədri 4-cü "Yüksəliş" müsabiqəsinin qaliblərini qəbul edib



"AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov 4-cü "Yüksəliş" müsabiqəsinin Mentorluq proqramı çərçivəsində müsabiqə qalibləri Aslan Həsənli və Rüfət Məmmədxanlı ilə növbəti görüşlərini keçirib.

Müsabiqə qaliblərinin fərdi inkişaf planlarına uyğun olaraq Səhmdar Cəmiyyətində idarəetmə sahəsində mövcud yanaşmalara həsr olunmuş görüşlərdə Zakir İbrahimov QSC-nin təşkilati strukturu, mövcud olan daxili nəzarət sistemləri, qərarların qəbul edilməsi qaydası haqqında fikirlərini bildirib, şəxsi təcrübəsini bölüşüb.

Həmçinin böhran vəziyyətlərinin idarə olunması, çevik, əhəmiyyətli və data əsaslı qərarların qəbul edilməsi, beynəlxalq əməkdaşlıq əlaqələrinin idarə olunması mövzuları müzakirə edilib, müsabiqə qaliblərinə sözügedən istiqamətlər üzrə bilik və bacarıqlarını artırmaları üçün müvafiq tövsiyələr verilib.

Görüşlər mövzular ətrafında sual-cavab formatında davam edib.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 26 iyul 2019-cu ildə imzaladığı Sərəncamla intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis edilib.

# Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş Beynəlxalq Elmi Konfrans keçirilib



8 may 2025-ci il tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin və Mərkəzi Gömrük Hospitalının birgə təşkilatçılığı, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin, Azərbaycan Respublikası Masallı Rayon İcra Hakimiyyətinin, Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyasının və "Ascent" şirkətinin dəstəyi ilə Masallı rayonunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Ana və Uşaq Sağlamlığı: Mövcud Problemlərə Müasir Baxış" mövzusunda Beynəlxalq Elmi Konfrans keçirilib.

Konfrans iştirakçıları və rəsmi qonaqlar Masallı rayonunda Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, dahi şəxsiyyətin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini böyük hörmət və ehtiramla yad ediblər.

"Ana və Uşaq Sağlamlığı: Mövcud Problemlərə Müasir Baxış" mövzusunda Beynəlxalq Elmi Konfrans Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə öz işinə başlayıb.

Tədbirdə açılış nitqi ilə çıxış edən Masallı rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov tədbir iştirakçılarını salamlayaraq konfransın işinə uğurlar arzulayıb.

Konfransın rəsmi açılış hissəsində çıxış edən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəisi, Əməkdar həkim, t.ü.f.d. Ceyhun Məmmədov Azərbaycan dövlətinin memarı və qurucusu, dahi şəxsiyyət ümummilli lider Heydər Əliyevin Azərbaycanın müstəqilliyi və inkişafı naminə həyata keçirdiyi misilsiz xidmətlərindən, ölkəmizin ictimai həyatının bütün sahələrində olduğu kimi səhiyyə sahəsində, ana və uşaq sağlamlığının qorunması istiqamətində həyata keçirilmiş islahatlardan danışıb. Ceyhun Məmmədov qeyd edib ki, Azərbaycanda ana və uşaq sağlamlığının qorunmasına xidmət edən dövlət siyasətinin əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir və bu istiqamətdə daim genişmiqyaslı işlər görülür. Belə ki, son illərdə həyata keçirilmiş məqsədyönlü tədbirlər sayəsində Azərbaycanda mama-ginekologiya, ana və uşaqların sağlamlığının təmin edilməsi sahəsində tibbi xidmətlərin keyfiyyəti xeyli yüksəldilmiş, mama-ginekologiya, pediatriya və neonatologiya üzrə kadr potensialı əhəmiyyətli dərəcədə gücləndirilmişdir.

Konfransın rəsmi açılış hissəsində, eyni zamanda DGK Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, ürək-damar cərrahı, t.e.d., Əməkdar həkim Rəşad Mahmudov və TƏBİB-in icraçı direktorunun müavini Araz Nəsirov çıxış ediblər.

Məruzəçilər çıxışlarında ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrlərdə səhiyyə sahəsinə göstərdiyi xüsusi diqqət və qayğı, ana və uşaq sağlamlığının müdafiəsi və inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi misilsiz xidmətlərindən söz açıblar.

Konfransın rəsmi açılış hissəsindən sonra elmi hissə Azərbaycan, Türkiyə və İngiltərənin aparıcı tibb müəssisələrində çalışan yüksəkixtisaslı mütəxəssislər çıxış ediblər. Konfransın "Mamalıq Patalogiyaları" , "Ginekologiyada müasir müalicələr" və "Ginekologiyada müasir müalicələr" mövzularında olan panellərində Böyük Britaniyanın Birmingem Qadın və Uşaq Hospitalının mama-ginekoloqu, t.ü.f.d. Fidan İsrafil-Bəyli, Türkiyənin Avropa Asiya Mama-Ginekologiya Dərnəyinin rəhbəri, qadın xəstəlikləri və doğum uzmanı Məlahət Atasevər, Mərkəzi Gömrük Hospitalının Mama-ginekologiya şöbəsinin rəisi, t.ü.f.d. Təranə Bayramova, Laboratoriya şöbəsinin rəisi, b.ü.f.d. Səbinə İbrahimova, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun Mamalıq-ginekologiya kafedrasının müdiri, t.e.d., prof. dr. Leyla Rzaquliyeva, DGK Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, ürək-damar cərrahı Rəşad Mahmudov, Türkiyənin Ankara Yıldırım Beyazıt Universitetinin Uşaq sağlamlığı və xəstəlikləri bölməsinin professoru dr. Nihal Demirel və Mərkəzi Gömrük Hospitalının pediatr-neonatoloq-reanimatoloqu Təranə Göyüşova təqdimatlarla çıxış ediblər.

Konfransın sonunda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəisi, Əməkdar həkim, t.ü.f.d. Ceyhun Məmmədov, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, ürək-damar cərrahı, t.e.d. Əməkdar həkim Rəşad Mahmudov, TƏBİB-in icraçı direktorunun müavini Araz Nəsirov, Milli Məclisin deputatı Məşhur Məmmədov, Masallı rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov və Milli Məclisin deputatı Məşhur Məmmədov tərəfindən Türkiyə və İngiltərənin aparıcı tibb müəssisələrinin məruzəçilərinə və tərəfdaş qurumun nümayəndəsinə dəyərli töhfələrinə görə təşəkkür plaketləri təqdim olunub.

Qeyd edək ki, konfransda yerli həkimlərlə beynəlxalq ekspertlər arasında təcrübə mübadiləsinin təmin edilməsi üçün panel müzakirələri və sual-cavab sessiyaları təşkil olunub. Konfransın hər bir iştirakçısına 7 DTT balı və sertifikat təqdim edilib.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının**
**PR mütəxəssisi**

# "AzerGold" QSC tərəfindən ölkəmizdə ilk dəfə Geoloji kəşfiyyat informasiya sistemi yaradılıb

"AzerGold" QSC tərəfindən ölkəmizdə ilk dəfə geoloji kəşfiyyat məlumatlarının real vaxt rejimində toplanması, emalı, arxivləşdirilməsi və idarə olunmasını təmin edən Geoloji kəşfiyyat informasiya sistemi yaradılaraq, istifadəyə verilib.

Yeni proqram təminatı QSC-nin biznes proseslərinin rəqəmsallaşdırılması, innovativ texnologiyaların tətbiqinin genişləndirilməsi sahəsində fəaliyyəti çərçivəsində geoloji tədqiqatlarının operativliyini və səmərəliliyini artırmaq məqsədi daşıyır.

Sözügedən sistem iki əsas komponentdən – veb əsaslı proqram təminatı və mobil tətbiqdən ibarətdir. Veb əsaslı proqram təminatı stasionar şəraitdə məlumatların emalı, idarə olunması və hesabatların hazırlanması funksiyalarını həyata keçirmək üçün nəzərdə tutulub. Bu platforma vasitəsilə geoloji məlumatların strukturlaşdırılması, arxivləşdirilməsi, müxtəlif formatlarda axtarış və çeşidləmə funksiyaları, habelə xəritə əsaslı vizualizasiya və təhlil imkanları təmin olunur.

Veb sistem informasiya axınını sinxronlaşdırır, məlumat təhlükəsizliyini təmin edir.

Mobil tətbiq isə sahə şəraitində, xüsusilə geoloji kəşfiyyat və nümunə toplama proseslərində istifadə üçün nəzərdə tutulub. Bu tətbiq geoloqlara koordinatların qeydiyyatı, foto və mətn məlumatlarının əlavə olunması, nümunələrin təsnifatı və digər funksiyaları yerinə yetirməyə imkan verir.

Mobil tətbiq oflayn rejimdə də işləmə qabiliyyətinə malikdir və internet bağlantısı bərpa olunduqda məlumatlar avtomatik olaraq əsas sistemə ötürülür.

Ümumilikdə proqram təminatı həm yerli, həm də beynəlxalq hesabatlılıq standartlarına uyğunluğun təmin edilməsində mühüm rol oynayır və gələcəkdə geoloji məlumatların daha geniş spektrdə istifadəsinə imkan yaradır.



## Tibbdə PR

# Tibbdə PR nədir?

İlk öncə PR ifadəsinə aydınlıq gətirim. PR ingilis dilində "public relations" ifadəsinin qısaldılmış forması olub, Azərbaycan dilinə tərcümədə "ictimaiyyətlə əlaqələr" deməkdir. PR cəmiyyətlə effektiv ünsiyyət qurmaq və etimad yaratmaq məqsədilə aparılan sistemli kommunikasiya, eləcə də məlumatlandırma, maarifləndirmə və qarşılıqlı əlaqələrin qurulması funksiyalarını yerinə yetirən bir fəaliyyət sahəsidir. Müasir PR fəaliyyəti yalnız informasiya ötürməkdən ibarət deyil – bu, strateji düşüncə, əlaqələrin qurulması və uzunmüddətli dəyər yaratmaq sənətidir. PR qurumun ictimaiyyət, tərəfdaşlar, media nümayəndələri və digər maraqlı tərəflərlə münasibətlərini strateji və planlı şəkildə təşkil etməyə və idarə etməyə xidmət edir.

PR fəaliyyətinin funksiyaları:

- *Brendin tanınmasının artırılması və ictimai yaddaşda möhkəmləndirilməsi;*
- *Brendə olan inamın və etibarlılığın artırılması;*
- *Müsbət imicin formalaşdırılması və davamlı olaraq qorunması;*
- *Cəmiyyət və pasiyentlərlə kommunikasiyaların qurulması;*
- *Böhran vəziyyətlərində reputasiyanın qorunması və bərpası;*
- *Müsbət ictimai imicin formalaşdırılması və davamlı olaraq qorunması;*
- *Müsbət informasiya mühitinin yaradılması və davamlı olaraq inkişaf etdirilməsi.*

*Bəs brendin tanınmasının artırılması və ictimai yaddaşda möhkəmləndirilməsi üçün nə etmək lazımdır?*

**1. Strateji hekayə quruculuğu üsulundan istifadə etmək.**

Bir brendin mahiyyətini, dəyərlərini və məqsədlərini cəmiyyətə ardıcıl şəkildə çatdırmaq üçün istifadə olunan PR metodudur. Bu, sadəcə faktların paylaşılması deyil, hekayə formatında auditoriyanın yaddaşında qalacaq və onlarda emosional reaksiya yaradacaq bir təqdimat üsuludur.

Strateji hekayə quruculuğunun əsas komponentləri:

**1. Mənşə hekayəsi:**
*– Brend necə yarandı?*
**2. Missiya və vizyon:**
*– Brend nə üçün mövcuddur? Cəmiyyətə və ya sektoruna necə töhfə verir?*
**3. Dəyərlər və emosional ton:**
*– Brend hansı prinsiplərə sadiqdir?*
**4. Real insanlar və hadisələr:**
*– Təsisçi, əməkdaş və ya pasiyent təcrübələrindən olan hekayələr.*

Strateji hekayə yazmaq üçün aşağıda qeyd olunmuş suallardan istifadə etmək olar.

**1. Başlanğıc nöqtəsi – haradan başladıq?**
**2. Motivasiya – niyə bu sahəni seçdik?**
**3. Əsas dəyərlər və məqsəd – biz nə üçün varıq?**
**4. Çətinliklər və uğurlar – hansı maneələri aşdıq?**
**5. Cəmiyyətə verdiyimiz töhfə – bizə görə uğur nədir?**
**6. Gələcəyə baxış – bundan sonra nə planlaşdırırıq?**

Bəs brendin tanınmasının artırılması və ictimai yaddaşda möhkəmləndirilməsi istiqamətində strateji hekayə niyə vacibdir?

*- Auditoriya ilə emosional bağ qurur;*
*- Brendi rəqiblərdən fərqləndirir;*
*- Media üçün maraqlı kontent yaradır;*
*- Daxili kommunikasiya üçün motivasiya vasitəsidir.*

Brendin tanınmasının artırılması və ictimai yaddaşda möhkəmləndirilməsi istiqamətində bir sıra digər üsullar mövcuddur.

**(ardı var)**



**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR üzrə mütəxəssisi**

# "AzerGold" QSC şəhid və müharibədə yaralananların ailələri ilə bağlı növbəti sosial layihənin icrasına başlayıb

"AzerGold" QSC tərəfindən şirkətin fəaliyyət göstərdiyi Gəncə-Daşkəsən iqtisadi rayonunu əhatə edən növbəti sosial təşəbbüsün həyata keçirilməsinə başlanılıb.

"Şəhid və müharibədə yaralananların ailə üzvlərinin iqtisadi inkişafına dəstək" layihəsi çərçivəsində Gəncə şəhəri, Daşkəsən, Göygöl və Samux rayonlarından olan 15 nəfər qadın qənnadçı-şirniyyatçı peşəsi üzrə intensiv təlim proqramlarına cəlb edilib.

Layihənin əsas məqsədi şəhid və müharibədə yaralananların ailə üzvlərinin qayğı ilə əhatə olunması, onların sosial fəallığını artırmaqla iqtisadi müstəqilliyinin dəstəklənməsi, inklüziv cəmiyyətin qurulmasına töhfələrin verilməsidir.

Layihə çərçivəsində iştirakçılara beynəlxalq dərəcəli qənnadçı ekspertlər tərəfindən nəzəri və praktiki təlimlər keçiriləcək. İki ay davam edəcək intensiv təlimlərdə bütün növ zəruri mal-material və avadanlıqlarla təmin edilən müdavimlərə müvafiq peşə sahəsi üzrə bilik və bacarıqlar aşılanacaq.

Təlim proqramları yekunlaşdıqdan sonra iştirakçılar Təhsildə Keyfiyyət Təminatı Agentliyinin "Qeyri-formal və informal təhsilin tanınması" imtahanında iştirak edərək, müvafiq peşə sertifikatı əldə edəcəklər.

Həmçinin layihənin yekunu olaraq təlim proqramlarına cəlb edilmiş tərəfdaş şirkətlər vasitəsilə müdavimlərin müvafiq sahədə işlə təminatına və ya fərdi sahibkarlıq fəaliyyətlərinin təşkilinə dəstək göstəriləcək.



Xatırladaq ki, həssas əhali qrupları "AzerGold" QSC-nin korporativ sosial məsuliyyət layihələri çərçivəsində əsas hədəf kateqoriyalarından biri olaraq müəyyən edilib və onların sosial rifahının yaxşılaşdırılmasına yönəlmiş müxtəlif layihələr həyata keçirilir.

Bununla yanaşı, şəhid ailəsi üzvlərinin, müharibə iştirakçılarının məşğulluğunun artırılmasına da əlavə töhfələr verilir. Hazırda "AzerGold" onun törəmə cəmiyyətləri və fəaliyyətə cəlb edilən uzunmüddətli podratçı şirkətlərin ümumilikdə 351 nəfər əməkdaşı qeyd olunan həssas kateqoriyaya aiddir.

# "Bakcell" və "Birbank" Azərbaycanda ilkə imza atdı

İnnovasiya və sürət lideri "Bakcell" ölkənin ilk rəqəmsal bankı "Birbank" ilə tərəfdaşlığını genişləndirərək rəqəmsal yeniliklər və müştəri məmnuniyyəti istiqamətində növbəti addımı atır. Bu təşəbbüs nəticəsində istifadəçilərə seçilmiş "Birbank" filiallarında "Bakcell" nömrələrinin təqdimatı və "Birbank" mobil tətbiqi vasitəsilə tam inteqrasiya olunmuş aktivləşdirmə təklif olunur. Tərəfdaşlığın əsas məqsədi innovasiya əsasında müştəriyönümlü və funksional xidmət modelinin formalaşdırılmasıdır.

Qeyd edək ki, "Bakcell" nömrələri "Birbank"ın "Gənclik Mall", "Sahil", "28 Mall", "Binəqədi" və "Sumqayıt" filiallarında quraşdırılmış xüsusi stendlər vasitəsilə təqdim olunur. İstifadəçilər stend və ya SIM paketinin üzərindəki QR kodu "Birbank" tətbiqi ilə skan edərək nömrəni tam rəqəmsal və sürətli şəkildə aktivləşdirə, daha sonra "Bakcell"in "Birinci" tarif paketindən faydalana bilərlər. Bu tarifə qoşulan müştərilər, həmçinin "Trendyol", "Umico", "m10" və "Birbank" platformalarından istifadə zamanı xüsusi fürsət və əlavə imkanlar əldə edəcəklər. Yaxın gələcəkdə isə digər "Birbank" filiallarında da yeni "Bakcell" stendlərinin quraşdırılması planlaşdırılır.




Əlavə olaraq, nömrələr "Əhmədli" ərazisində, həmçinin "Koroğlu", "20 Yanvar" və "Şah İsmayıl Xətai" metro stansiyalarının yaxınlığındakı "Bravo" hipermarketlərində yerləşən "Bakcell" stendlərindən də əldə edilə bilər.

Bu təşəbbüs "Bakcell"in müştəriyönümlü yanaşmasını əks etdirən və müştəri təcrübəsinin hər mərhələsində rəqəmsal yeniliyi təşviq edən növbəti uğurlu addımdır.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500